**Bayramzadeh T.E.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2019.60.-30-55**

# The analysis of the corpus delicti in the investigation of crimes for abuse of power

**Abstract**: In order to call a person to account and to be prosecuted for the signs of a certain type of crime specified in the criminal norm are revealed in the act committed by him. It is also determined by these signs that the committed act belongs to the class of offenses set forth in the criminal law. In criminal law, the totality of such signs is called the corpus delicti.

In the literature, along with the signs of the corpus delicti, the expression of the elements of the corpus delicti is often used. An element of the corpus delicti being a structural part of it is a group element that corresponds to different aspects of the act (object, objective feature, subject, subjective feature), which is considered a crime under law.

The object of the crime in cases of abuse of power is the normal operation of the state and local authorities. The objective feature of the crime can be both active and inactive.

Generally, there are different positions in the theory of criminal law regarding the explanation of the object of the crime. Despite of these distinct positions, it is reasoned that the correct identification of the object of a crime contribute to determine the essence of the socially dangerous act, its legal nature, correctly characterize the specific socially dangerous act, to differentiate the components of the crime in controversial circumstances, etc.

Crimes of abuse of power may be done  directly or indirectly on purpose. The

♦ **Bayramzadeh Tural Etibar oglu -** Senior Research Fellow of the Department for “Criminal Law and Criminal Process” of the Institute of Law and Human Rights of Azerbaijan National Academy of Sciences (Azerbaijan). E-mail: marshall.bt@mail.ru

subject of the abuse of power is an official. Generally, the subject of malfeasance can only be an official, and the subject of a military crimes is only a serviceman or a person who is in the military service.

It is not enough for a person to become a subject of the above-said crimes he or she is physically, quick-witted and has reached the age established by law. For this, the subject must also have certain additional features. In criminal law, the subject, which along with necessary features is characterized by additional features of the crime, is called a special subject.

**Keywords:** abuse of power; malfeasance; official; corpus delicti, object of crime, subject of crime, special subject, criminal responsibility.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Xüsusi hissəsində cinayət hesab edilən əməllərin dəqiq siyahısı göstərilmişdir. Eyni zamanda cinayət qanunu cinayət sayılan əməllərin adını qeyd etməklə yanaşı, həm də hər növə daxil olan cinayət əməlləri üçün xarakterik olan tipik əlamətləri göstərir. Hər hansı bir şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və təqsirləndirilməsi üçün onun törətdiyi əməldə cinayət hüquq normasında göstərilən müəyyən növə daxil olan cinayətin əlamətləri mövcud olmalıdır. Həmçinin, bu əlamətlərin köməyi ilə törədilən əməlin cinayət hüquq normasında göstərilən cinayətlər sinfinə mənsubluğu müəyyənləşdirilir. Cinayət hüquq elmində belə əlamətlərin cəmi – cinayət tərkibi adlanır.

Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 3-cü maddəsində deyilir: "Yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır" [3].

İlk növbədə, cinayətlərin tərkib əlamətlərinin qanunun hansı hissəsində nəzərdə tutulduğunu qeyd edək.

Cinayət tərkibinin əlamətləri öncə CM-in Xüsusi hissəsinin maddələrinin

dispozisiyasında göstərilir. Cinayət tərkibinin digər əlamətləri, adətən dispozisiyaya deyil, cinayət qanunun Ümumi hissəsinin maddələrinə daxil edilir (CM-in 2, 3, 14, 20, 25, 26, 31-ci maddələri). Belə əlamətlər konkret tərkiblər üçün ümumi olan əlamətlərdir.

Bütün hallarda cinayətin subyekti olmaq üçün qanunla müəyyən edilən yaş həddinə çatmaq, anlaqlı olmaq tələbi qoyulur. Lakin cinayət qanunun Xüsusi hissəsinin heç bir dispozisiyasında subyektlə bağlı bu əlamət nəzərdə tutulmur. Bütün konkret tərkiblər üçün bu əlamət ümumi olduğundan cinayət qanunun Ümumi hissəsinin 20-ci maddəsinə daxil edilmişdir [6, s. 113-114].

Ədəbiyyatda cinayət tərkibinin əlamətləri ilə yanaşı, cinayət tərkibinin elementləri ifadəsi də tez-tez işlədilir. Cinayət tərkibinin elementi tərkibin struktur hissəsi olub, qanunla cinayət sayılan əməlin müxtəlif tərəflərinə (obyektə, obyektiv cəhətə, subyektə, subyektiv cəhətə) uyğun gələn qrup ünsürləridir.

Cinayətin obyekti kriminal qəsdlərdən qorunan ictimai münasibətlərdir. Cinayətin obyektinin cinayətin tövsifi üçün, cinayətin xarakterinin və təhlükəlilik dərəcəsinin müəyyən edilməsi üçün mühüm əhəmiyyəti vardır.

Cinayətin obyektinin düzgün müəyyən edilməsinin nəinki nəzəri, həm də mühüm təcrübi əhəmiyyəti vardır. Bu onunla izah edilir ki, cinayətin obyektinin düzgün müəyyən edilməsi ictimai təhlükəli əməlin mahiyyətini, onun hüquqi təbiətini müəyyən etməyə, konkret ictimai təhlükəli əməli düzgün tövsif etməyə, mübahisəli məqamlarda ayrı-ayrı cinayət tərkiblərini bir-birindən fərqləndirməyə və nəticədə, ümumiyyətlə, cinayət hüquq normalarının qüvvəsinin şamil olunduğu sərhədləri dəqiqləşdirməyə imkan verir [8, s. 176-177].

İ.B. Ağayev yazır ki, "…obyekt cinayəti törədən şəxsə qarşı durur, yəni təqsirkar qanuna zidd olan səylərini özündən kənar edərək ona qarşı yönəlir. Cinayətin obyekti törədilmiş əməlin sosial mahiyyətini və onun ictimai təhlükə-liliyini əhəmiyyətli dərəcədə müəyyənləşdirir, onun yönümünü göstərir. Törədilmiş əməlin xarakteri və ictimai təhlükəliliyi cinayətkar əməlin qəsd

etdiyi obyektin dəyərindən asılıdır" [1, s. 30].

Bu mülahizənin doğru olduğu qənaətinə gələrək, qeyd etmək istərdik ki, qəsd edilən obyektin sosial dəyəri nə qədər yüksək olarsa, törədilmiş əməlin də ictimai təhlükəliliyi bir o qədər böyük olur. Çünki ictimai həyatda insandan dəyərli olan heç bir sosial varlıq və ya xüsusi dəyərə malik başqa bir obyekt yoxdur.

Cinayət hüququ elmində hamılıqla qəbul olunmuşdur ki, cinayətin subyektiv cəhəti əqli, iradi və emosional maraqlarla, bunların müxtəlif çalarları ilə və həm əməlin özünə, həm də onunla bağlı olan, eləcə də ondan əvvəl gələn, onunla eyni bir vaxtda mövcud olan və ya gələcək zamana aid olan birləşmələrdə ifadə olunur. [1, s. 205].

Cinayətin subyektini səciyyələndirmək üçün cinayət qanunu tərəfindən cinayət tərkibi anlayışına xüsusi əlamətlər daxil edilmişdir. Məsələn, hərbi xidmət əleyhinə olan cinayətlərin subyekti yalnız hərbi qulluqçular, ədalət mühakiməsi əleyhinə olan cinayətlərin subyekti həm istintaq və məhkəmə orqanlarının əməkdaşları, həm də adi vətəndaşlar ola bilər. Elə kateqoriya cinayətlər vardır ki, onların dairəsi qanun normasının (maddənin) dispozisiyasından subyekt aydın olur. Xəstəyə kömək göstərməməsi (subyekt qismində yalnız müalicə həkimi çıxış edə bilər), yaxud gəmi kapitanının fəlakətə uğrayanlara kömək göstərməməsini (subyekt qismində yalnız gəmi kapitanı çıxış edir) və s. misal göstərmək olar.

Cinayət hüququnda cinayətin subyekti, cinayət qanununda nəzərdə tutulan ictimai təhlükəli əməli qəsdən, yaxud ehtiyatsızlıqdan törədərkən qanunla müəyyən edilən yaş həddinə çatan, anlaqlı olan, ayrı-ayrı hallarda müvafiq normalarda göstərilən bəzi xüsusi əlamətlərə malik olan fiziki şəxslər başa düşülür [7, s. 257].

Elə cinayət növləri də vardır ki, belə cinayətlərin subyekti olmaq üçün şəxsin fiziki, anlaqlı olması, qanunla müəyyən edilən yaş həddinə çatması kifayət deyildir. Bunun üçün subyekt həm də müəyyən əlavə xüsusiyyətlərə malik olmalıdır. Cinayət hüququnda cinayətin subyekti üçün zəruri olan əlamətlərlə yanaşı, əlavə əlamətlərlə xarakterizə olunan subyektə xüsusi subyekt deyilir. Ayrı-

ayrı növdən olan cinayətləri xarakterizə edərkən qanunvericilik subyektlərin dairəsini konkretləşdirmək məqsədilə əlavə – xüsusi subyekt əlamətlərindən də istifadə edir.

Xüsusi subyekt üçün xarakterik olan belə əlamət vəzifə mövqeyi ilə, işdə onun üçün müəyyən edilən səlahiyyət dairəsi ilə, hərbi mükəlləfiyyət və ya hərbi qulluqla, peşə ilə və s. bu kimi xüsusiyyətlərlə bağlı ola bilər. Məsələn, vəzifə cinayətlərinin subyekti ancaq vəzifəli şəxs ola bilər, hərbi cinayətlərin subyekti ancaq hərbi qulluqçu, yaxud da müddətli hərbi xidmətdə olan şəxs olur.

Xüsusi subyekt ümumi əlamətlərlə yanaşı, cinayətin spesifik xüsusiyyətlərini əks etdirən, cinayət hüquq normasının dispozisiyasında göstərilən əlavə əlamətlərə malik olan subyektə deyilir. Normanın dispozisiyasında xüsusi subyektə aid əlamətin nəzərdə tutulması onu göstərir ki, qanunla müəyyən edilən yaş həddinə çatmış, fiziki anlaqlı şəxslər belə spesifik əlamətə malik olmadan müəyyən kateqoriya cinayətin subyekti ola bilməzlər.

Cinayət qanunvericiliyi xüsusi subyekti xarakterizə edən əlaməti tərkibə daxil etməklə müəyyən növ cinayətə görə məsuliyyət daşıyan şəxslərin dairəsini konkretləşdirir. Başqa sözlə, müəyyən növ cinayətləri ancaq işinin xarakterinə və tutduğu vəzifəsinə görə xüsusi funksiyanı yerinə yetirən şəxslər törədə bilər. Belə şəxslərin məsuliyyətini nəzərdə tutan tərkiblər xüsusi subyektli tərkiblər adlanır. Xüsusi subyekt əlaməti cinayətkarın şəxsiyyətini müxtəlif cəhətdən – işdəki və ya xidmətdəki qulluq mövqeyini, vəzifəni, peşəni, hərbi vəzifələri, ailə vəziyyətini və s. xarakterizə edir.

Cinayət hüquq nəzəriyyəsində konkret cinayət tərkibi ilə yanaşı Xüsusi və Ümumi cinayət tərkibi anlayışı da fərqləndirilir. Konkret cinayət tərkibləri cinayətin dörd ünsürünə uyğun qurulur.

Konkret cinayət tərkiblərinə daxil olan əlamətləri ümumiləşdirməklə ümumi cinayət tərkibi anlayışı yaradılır. Konkret cinayət tərkibi müəyyən növ cinayətlər haqqında hüquqi anlayış olduğu halda, ümumi cinayət tərkibi bütün konkret

cinayət tərkibləri haqqında anlayışdır.

Konkret və ümumi cinayət tərkibləri ilə yanaşı, xüsusi cinayət tərkibləri də fərqləndirilir. Xüsusi cinayət tərkibi cinayət qanunu ilə müəyyən edilən eyni qrupa daxil olan cinayətləri xarakterizə edən ümumi hüquqi əlamətlərin məcmusudur. Belə ki, xüsusi təhlükəli dövləti cinayətlərin, vəzifə və hərbi cinayətlərin obyektlərinin, obyektiv cəhətlərinin, subyekt və subyektiv cəhətlərinin ümumi əlamətlərinin olması, onlara konkret cinayət tərkiblərindən kənarda baxmağa imkan verir.

Bir sıra normalar üzrə cinayətin subyektini müəyyən edərkən qanunverici ancaq müəyyən dövlət sisteminə mənsub işçiləri xarakterizə edən əlamətlərdən istifadə etmişdir. CM-in Xüsusi hissəsinin 32-ci fəslində nəzərdə tutulan normalar qrupu ədalət mühakiməsi əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edir. Burada təhqiqatçı, müstəntiq, prokuror, hakim, ekspert, məhkum və s. xüsusi subyekt kimi nəzərdə tutulur...

Qanunda xüsusi subyekti nəzərdə tutan tərkiblər çoxdur və xüsusi subyekti xarakterizə edən əlamətlərin təsnifi aşağıdakı qaydada aparıla bilər.

1) şəxsin dövlətdəki hüquqi vəziyyəti üzrə: Azərbaycan Respublikasının vətəndaşı (CM-in 274-cü maddəsi), əcnəbi və vətəndaşlığı olmayan şəxs (CM-in 276-cı maddəsi);

2) demoqrafik əlamətlər üzrə: cinsinə görə kişi (CM-in 149-cu maddəsi), yaş həddinə görə yetkinlik yaşına çatmış şəxslər (CM-in 152-ci maddəsi);

3) ailə və qohumluq münasibətləri üzrə: valideynlər, qəyyumlar (CM-in 175-ci maddəsi);

4) hərbi mükəlləfiyyətlə bağlı münasibətlər üzrə: hərbi xidmətə çağırış yaşına çatmışlar, hərbi mükəlləfiyyətli şəxslər (CM-in 321-ci maddəsi), hərbi qulluqçular (CM-in 327-353-cü maddələri);

5) vəzifə mövqeyi üzrə: vəzifəli şəxs (CM-in 308, 309, 311, 313, 314-cü maddələri);

6) xüsusi dövlət sistemində işləyən şəxslərin vəzifə mövqeyinə görə: təhqiqatçı, müstəntiq, prokuror, hakim (CM-in 290-cı, 291-ci, 292-ci və 295-ci maddələri);

7) peşə vəzifələri üzrə: həkim, tibb və əczaçılıq sahəsi işçiləri (CM-in 138, 141, 142-ci maddələri);

8) icra etdiyi işin xarakterinə görə: dövlət sirrinin saxlanılması etibar edilən şəxslər (CM-in 284, 285-ci maddələri), seçki komissiyasının üzvləri (CM-in 161-ci maddəsi), dəmiryolu, su və hava nəqliyyatı işçiləri (CM-in 262-ci, 265-ci maddələri), gəmi kapitanı (CM-in 269-cu maddəsi), ticarət, ictimai iaşə, məişət xidməti və kommunal təsərrüfat müəssisələri işçiləri, əhaliyə məişət xidməti göstərən sahənin işçiləri (CM-in 270-ci maddəsi);

9) vətəndaşların dövlət qarşısındakı bəzi öhdəçiliklərinin xarakterinə görə: şahid, zərərçəkmiş şəxs, ekspert (CM-in 297, 298-ci maddələri);

10) zərərçəkmiş şəxsə münasibətdə şəxsin xüsusi vəziyyətinə görə: zərərçəkənin maddi və sair cəhətdən təqsirkardan asılı olması, zərərçəkənə qayğı göstərməli olan şəxs (CM-in 125-ci, 174-cü və s. maddələri);

11) Residiv əlaməti ilə bağlı olan xüsusi subyektlər – (CM-in 177.3.3-cü, 182.3.4-cü, 184.3.3-cü, 235.4.4-cü maddələri) [6, s. 273-275].

Qanunda xüsusi subyekti nəzərdə tutan tərkiblər çoxdur. Bunlarda biri də vəzifə səlahiyyətlərini aşma cinayətidir.

Bu cinayətin ictimai təhlükəliliyi ondan ibarətdir ki, vəzifəli şəxsin qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlərindən kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüququ şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmuş olur. Nəticədə həm insan və vətəndaşın konstitusiya hüquq və azadlıqları, həm də dövlət orqanlarının normal fəaliyyəti pozulur.

Qeyd edilən cinayətin obyekti dövlət və yerli özünüidarə orqanlarının normal fəaliyyətidir. Əlavə obyekt qismində fiziki və ya hüquqi şəxslərin hüquqları və

qanuni mənafeləri, cəmiyyətin və dövlətin qanunla qorunan mənafeləri çıxış edir.

Vəzifə səlahiyyətlərini aşmanın obyektiv cəhəti üç zəruri əlaməti özündə əks etdirir:

1) vəzifə səlahiyyətlərini aşmada ifadə olunan hərəkətlər;

2) fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmada ifadə olunan ictimai təhlükəli nəticə;

3) əməllə nəticə arasında səbəbli əlaqənin olması.

4) Bu cinayətin obyektiv cəhətinə daxil olan əməl vəzifəli şəxsin öz səlahiyyətlərindən kənara çıxan hərəkətlər etməsində ifadə olunur. "Hakimiyyət səlahiyyətindən və ya qulluq mövqeyindən sui-istifadə etmək, hakimiyyət və ya qulluq səlahiyyətini aşmaq, səhlənkarlıq və vəzifə saxtakarlığı haqqında işlər üzrə məhkəmə təcrübəsi haqqında" SSRİ Ali Məhkəməsi Plenumunun 30 mart 1990-cı il tarixli 4 saylı qərarının 11-ci bəndində vəzifə səlahiyyətlərini aşmanın aşağıdakı əsas növləri göstərilmişdir: 1) vəzifəli şəxsin başqa vəzifəli şəxsin səlahiyyətinə aid olan hərəkətləri etməsi; 2) vəzifəli şəxsin yalnız xüsusi hallarda, qanunda və ya qanun qüvvəli aktlarda göstərilən hallarda etməli olduğu hərəkətləri adi halda etməsi; 3) kollegial orqanın etmək hüququ olduğu hərəkətləri vəzifəli şəxsin təkbaşına etməsi; 4) vəzifəli şəxsin heç kimin və heç bir halda etmək hüququ olmayan hərəkətləri etməsi [4, s. 639].

Göstərilən bütün hallar üçün ümumi olan cəhət ondan ibarətdir ki, vəzifəli şəxs qanunla ona verilmiş hüquq və səlahiyyətlərdən kənara çıxan davranışa yol verir.

Obyektiv cəhətdən vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər edilməsində ifadə olunur.

Əməlin nəticəsi kimi vətəndaşların və ya təşkilatların hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurulması nəzərdə tutulur [5, s. 781].

Subyektiv cəhətdən bu cinayət birbaşa və ya dolayı qəsdlə edilə bilər. Təqsirkar vəzifə səlahiyyətlərini aşdığını dərk edir, bunun fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuracağını qabaqcadan görür və bu hərəkətləri törətməyi arzu edir və ya bu nəticələrin baş verməsinə şüurlu surətdə yol verir.

Bu əməlin motiv və məqsədi cinayət tərkibinin zəruri əlamətləri sırasına daxil deyildir.

Vəzifə səlahiyyətlərini aşmanın subyekti vəzifəli şəxsdir.

Vəzifəli şəxsin anlayışı CM-in 308-ci maddəsinin (Vəzifə səlahiyyətlərindən sui-istifadə) şərhində verilmişdir. Qeyddə göstərilir ki, bu fəslin maddələrində “vəzifəli şəxs” dedikdə aşağıdakı şəxslər başa düşülür:

1. hakimiyyət nümayəndələri, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyən olunmuş qaydada dövlət orqanlarına seçilmiş və ya təyin edilmiş, yaxud xüsusi səlahiyyət əsasında dövlət və ya yerli özünüidarə orqanlarını təmsil edən şəxslər, zabit, gizir və ya miçman olan hərbi qulluqçular, dövlət qulluqçuları (dövlət qulluğunun xüsusi növündə çalışan şəxslər daxil olmaqla), bələdiyyə üzvləri və bələdiyyə qulluqçuları;

2. dövlət orqanlarında seçkili vəzifələrə namizədliyi qanunla müəyyən edilən qaydada qeydə alınmış şəxslər;

3. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarının, *o cümlədən publik hüquqi şəxslərin, həmçinin* kommersiya və qeyri-kommersiya təşkilatlarının rəhbərləri və işçiləri;

4. dövlət və bələdiyyə müəssisə, idarə və təşkilatlarında, *o cümlədən publik hüquqi şəxslərdə, həmçinin* kommersiya və qeyri-kommersiya təşkilatlarında xüsusi səlahiyyət üzrə təşkilati-sərəncamverici və ya inzibati-təsərrüfat funksiyalarını yerinə yetirən şəxslər;

5. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər;

6. xarici ölkələrin dövlət orqanlarının vəzifəli şəxsləri, xarici ölkələrin seçkili dövlət orqanlarının üzvləri, beynəlxalq təşkilatların vəzifəli şəxsləri və digər qulluqçuları, beynəlxalq parlament assambleyalarının üzvləri;

7. beynəlxalq məhkəmələrin hakimləri və digər vəzifəli şəxsləri, *Azərbaycan Respublikası və ya xarici ölkələrin qanunlarına, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən fəaliyyət göstərən yerli, xarici və beynəlxalq arbitrlər*, xarici andlı iclasçılar.

Hazırda Azərbaycan Respublikasının Cinayət Məcəlləsində – Vəzifə səlahiyyətlərini aşma – yəni 309-cu maddə aşağıdakı redaksiyada verilmişdir.

309.1. Vəzifəli şəxs tərəfindən xidməti səlahiyyətlərinin hüdudlarından açıq-aşkar surətdə kənara çıxan hərəkətlər etməsi fiziki və ya hüquqi şəxslərin hüquqlarına və qanuni mənafelərinə, yaxud cəmiyyət və ya dövlətin qanunla qorunan ənafelərinə mühüm zərər vurduqda - *iki min manatdan dörd min* manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

309.2. Bu Məcəllənin 309.1-ci maddəsində nəzərdə tutulmuş əməllər zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə törədildikdə, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədildikdə və ya ağır nəticələrə səbəb olduqda – üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, üç ildən *səkkiz* ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır [3].

CM-in 309.2-ci maddəsində təhlil edilən cinayətin ağırlaşdırıcı tərkib əlamətləri – CM-in 309.1-ci maddəsində göstərilən əməlin zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə törədilməsi, yaxud silah və digər xüsusi vasitələrdən istifadə etməklə törədilməsi və ya ağır nəticələrə səbəb olması nəzərdə tutulmuşdur.

Vəzifə səlahiyyətlərini aşma üzücü, zərərçəkmişin ləyaqətini təhqir edən hərəkətlərlə müşayiət olunarsa və zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə bağlı olmazsa, onda əməl CM-in 309.1-ci maddəsi ilə tövsif ediləcəkdir.

Dövlət orqanlarının və ictimai orqanların müəssisələrin və idarələrin, təşkilatların rəhbərləri şikayətlərin qəbul edilməsi və baxılması üçün şəxsən məsuliyyət daşıyırlar. Onlar və yaxud onların müvəkkil etdiyi şəxslər şikayəti mahiyyətcə araşdırmalı, əsaslandırılmış qərar qəbul etməli, onun düzgün və vaxtında icrasını təmin etməli, vətəndaşları qəbul edilmiş qərar barədə xəbərdar etməli, şikayət rədd edildikdə isə rəddetmə motivlərini onlara bildirməlidirlər.

Azərbaycan Respublikası Konstitusiyasının müddəalarına (maddə 60) əsasən vətəndaşların hüquq və azadlıqlarının inzibati və məhkəmə təminatı vardır.

“Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər” [2].

Vətəndaşların şikayətlərinə baxılması qaydasını pozma, habelə şikayət üstündə vətəndaşları təqibetmə intizam məsuliyyətinə, bəzən isə cinayət məsuliyyətinə səbəb olur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsində iki fəsil vardır ki, bu fəsillərə ancaq xüsusi subyektli tərkiblər daxil edilmişdir: “Korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlər” və “Hərbi xidmət əleyhinə olan cinayətlər”. Qanunverici orqan xüsusi subyektli tərkibləri nəzərdə tutan belə adlar altında fəsilləri ayırarkən nəzərə almışdır ki, dövlət aparatının normal fəaliyyətinə və hərbi qulluğun keçirilməsi qaydalarına qəsd edən cinayətləri, yalnız müəyyən səlahiyyət funksiyasını yerinə yetirən vəzifəli şəxslər, habelə hərbi qulluqçular törədə bilər. Vəzifəli şəxs (xüsusi subyekt) olmayanlar vəzifə səlahiyyətlərinin icraçısı ola bilməzlər. Vəzifə cinayətlərini nəzərdə tutan fəsilə daxil olan yalnız üç tərkib üzrə – vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə (CM-in 310-cu maddəsi), rüşvət vermə (CM-in 312-ci

maddəsi) və vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə (nüfuz alveri) (CM-in 312-1.2-ci maddəsi) cinayətlərinin subyekti vəzifəli şəxs olmaya da bilər.

Ümumi vəzifə cinayətləri aşağıdakılardır: Vəzifə səlahiyyətlərindən sui-istifadə (maddə 308); Vəzifə səlahiyyətlərini aşma (maddə 309); Rüşvət alma (passiv rüşvətxorluq) (maddə 311); Vəzifə saxtakarlığı (maddə 313); Səhlənkarlıq (maddə 314).

Yekun olaraq qeyd edək ki, cinayət hüququnun ən mühüm sahəsi olan cinayət tərkibinin mahiyyətini dərindən bilmədən cinayət hüququnu anlamaq mümkün deyil. Cinayət tərkibi cinayət məsuliyyətinin vahid əsası kimi götürülür. Buna görə də cinayət tərkibinin tədqiq edilməsi qanunçuluğa düzgün əməl olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

## References


1. Agayev I.B. Cinayet terkibi: Ders vesaiti [Corpus delicti]. Baku: 2005, 496 p.
2. Azerbaycan Respublikasinin Konstitusiyasi. [Constitution of Azerbaijan Republic]. Baku: 2016, 92 p.
3. Azerbaycan Respublikasinin Cinayet Mecellesi. [Criminal Code of Azerbaijan Republic]. Baku: 2017, 756 p.
4. Azerbaycan Respublikasi Cinayet Mecellesinin Kommentariyasi. II hisse [Commentary to the Criminal Code of Azerbaijan Republic. Part 2] / huquq elmleri doktoru, professor F.Y. Samandarovun redaktesi ile [Ed. by Doctor of Law, Prof. F.Y. Samandarov]. Baku, 2018, 800 p.
5. Efendiyev E.M. Azerbaycan Respublikasi Cinayet Mecellesinin sherhi (Xususi hisse) [Clarification of the Criminal Code of Azerbaijan Republic (Special Part)]. Baku: 2001, 920 p.
6. Semenderov F.Y. Cinayet huququ. Umumi hisse. Yeniden ishlenmish tekrar neshr [Criminal law. General Part. Revised edition]. Baku: 2018, 724 p.
7. Kurs ugolovnogo prava. Obshchaya chast’. Tom 1: Uchenie o prestuplenii

[Course of criminal law. General part. Vol. 1: Doctrine on crime]. Uchebnik dlya vuzov. Pod red. N.F. Kuznetsova i I.M. Tyazhkovoyi [Textbook for Universities. Ed. by N.F. Kuznetsov and I.M. Tyazhkova]. Moscow, 2002, 624 p.

8. Naumov A.V. Rossiyiskoe ugolovnoe pravo. Obshchaya chast’. Kurs lektsiyi [Russian criminal law. General part. Course of lectures]. 6-e izdanie [6 edition]. Moscow, 2019, 833 p.